22 oktyabr / 2020

# QARABAĞ AZƏRBAYCANDIR!

Üstümüzdə qara bulud kişnəyir,
Od püskürür düşmən neçə zamandır!
Oyan Azərbaycan, qalx Turan eli
Analar ağlayır, gör necə andır!
Qarabağ illərdi qara bağlayıb,
Azadlıq eşqilə yara bağlayıb.
Düşmən tapdaqında sinə dağlayıb.
İgidlər, zəfəri çalın, amandır!
Qalxsın yüksəkliyə üç rəngli bayraq,
Canlansın, "can"- desin, qoy, ana torpaq,
Yansın Qarabağda, nur saçsın çıraq.
Qarabağ bir parça Azərbaycandır!

# DÜNYA "TOVUZ" DEDİ

Dünya "Tovuz" dedi, can bağı qurdu,
Tovuz Qarabağın sədası oldu.
Düşmənlər göz qoydu Azərbaycana
Tovuz Vətənimin qalası oldu.
Dikəldi ayağa can igidləri,
Dönmədi mərdlikdən yan, igidləri.
Tökdü Vətən üçün qan, igidləri,
Tovuz düşmənlərin bəlası oldu.
Dünya silkələndi, ayağa qalxdı,
Böyük Türk bir oldu, dayağa qalxdı.
Tovuz qürur verdi, can dağa qalxdı,
Düşmənin canını alası oldu.
Şəhid verdi, torpağını vermədi,
Qönçə verdi, gül bağını vermədi!
Tufan qopdu, dayağını vermədi,
Tovuzum qələbə çalası oldu!!!

# QARABAĞ YOLU

Tovuzdan başladı Qarabağ yolu
Bu yol zəfər yolu, Turan yoludur!
Vətənim uğrunda hər bir şəhidin
Bayraqla ucalan al qan yoludur!
Dünya sirkələndi TÜRKün gücünə,
Ordum səbəb oldu düşmən köçünə.
Qarabağ başladı kol-kos biçinə,
Bu yol şərəf yolu, bu şan yoludur.
İllər sonra gülür üzü Vətənin,
Sevincdən od tutub közü Vətənin,
Vüsala yol alıb izi Vətənin,
Bu yol Allah yolu, Quran yoludur.
Qarabağ torpağın yorğan eylədi-
İgidlər canını qurban eylədi.
Şəhidlik zirvəsin heyran eylədi-
Bu qürur yoludur, bu can yoludur!
Bəzənib bayraqla Azərbaycanım!
Azadlıq eşqinə qurbandır canım!
Qarabağ - Vətənim, şöhrətim, şanım!
Qarabağ yar yolu, canan yoludur.

# MUĞAMAT SEVİNİR

Budur, qələbənin ətri duyulur,
Payızın ortası yaz hayındayam.
Qarabağ atları meydan sulayır,
Könlüm cuşa gəlib, saz hayındayam.
El-obam şad-xürrəm, bayram içində,
Qələbə sevincli, həsrət biçində.
Qışlaqdan yaylağa könül köçündə,
Cənnət məni gəzir, naz hayındayam.
Muğamat sevinir, öz evindədir,
İlahi nəğmələr köz evindədir.
Nəşə qələm gəzir, söz evindədir-
Muğam beşiyində caz hayındayam.

# NEYLƏSİN

Neçə ildir qara geyib Qarabağa qar neyləsin?!
Qərib düşüb bağbanından versə də çox bar neyləsin?!
Gülşən idi hər bucağı, cənnətdən pay almış idi,
İndi həmin gülüstanə bizsiz düşüb xar neyləsin?!
Lap əzəldən yaylaq olan azəriyə dağ, çəməni
İndi xarı bülbülünə gəlməsin bəs dar neyləsin?!
Sənsiz gəzib səda salsa dünyaya yanıq muğamın
Bax yenə də səndən alır ilham, vüqar, ar neyləsin?!
Mehman, necə zülüm verdi Qarabağın dərdi bizə,
Bunca kədər-qəm içində ağlamasın tar neyləsin?!



**Mehman RASİMOĞLU**
**Azərbaycan Yazıçılar Birliyinin üzvü,**
**Prezident təqaüdçüsü**